

Şahvələd ƏLİYEV

povest

# DOSTLAR

Əliağa gözlərini bir nöqtəyə dikib susurdu. Bu nöqtədə o, başına gələn hadisələri aydın səma kimi görürdü. Və bu nöqtə get-gedə uzanaraq bir oxa çevrilirdi və bu ox onun qəlbindən, hafizəsindən keçərək düz ürəyinə sancılırdı. Dəniz kimi təlatümə gələn ürəyi heç cür sakitləşə bilmirdi. Fikirlər meydanında at çapırdı Əliağa.

Qəflətən xəstələnib ölüm yatağından qalxmağına sevinmək əvəzinə o, özünə ölüm arzulayırdı. Hətta ona təsəlli verən ata-ana, bacı-qardaş, qohumları, arvadı və uşaqlarını belə görmək istəmirdi. Onun ölümdən qurtarıb sağalmağında əlindən gələni edən həkimləri və hətta ata-ana, qohumlarını da sağalmağında günahlandırırdı və o, bu dünyada yaşamağı özünə artıq sayırdı.

Əliağa özünə ona görə ölüm arzulayırdı ki, ona ölümdən də betər mənəvi və maddi zərbə vuran dostlarının ona qarşı etdiyi xəyanət idi. Əgər o, xəstələnməsəydi, belə bir ağır vəziyyətə düşməsəydi, ömür boyu heç xəyalına da gətirməzdi ki, dostları ona bu cür qəddarcasına xəyanət edər.

Bax, bu fikir idi onun ürəyini deşən...

Əliağa, uzun boylu, enlikürək, qonur gözləri, qaranlıq gecə kimi qara saçları, geniş alnı, gözəl sifətinə yaraşıq verən qara bığları və gözəl qaməti olan sağlam bir gənc idi. O, orta məktəbi qızıl medalla bitirdikdən sonra, sənaye universitetinə daxil olur. Oranı fərqlənmə diplomu ilə başa vuraraq, bir müddət istehsalatda çalışmağa başlayır. Sonra o, fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq fikrinə düşür. Belə ki, o, inşaat materialları hazırlayan bir sex açmağa müvəffəq olur və o, bu sexdə qapı, pəncərə və s. inşaat materialları hazırlamağa başlayır. Sifarişlərin sayı arta-arta, qanancı da artırdı. O, özünə hər cür şərait yaradır, öz qohumlarına, hətta dost-tanışlarına da əl tuturdu.

Onun pulu arta-arta, bəzi insanlar kimi pula hərisliyi də artmırdı. Yəni, pul yığmırdı. Əlsiz-ayaqsızlara, çətinliyə düşənlərə, kimsəsizlərə də kömək edirdi. Bir sözlə, çox xeyirxah insan idi Əliağa. Belə xeyirxah və əliaçıqlığına görə, onun dostlarının sayı artmağa başladı.

O, hələ rayonda orta məktəbdə oxuduğu müddətdə onun dostları vardı və onları heç vaxt yaddan çıxarmazdı. Bakıya köçüb şəhərdə yaşamağına baxmayaraq, yenə də onlarla əlaqə saxlayırdı və imkan düşən kimi mütəmadi onlarla görüşürdü. Hətta orta məktəbi bitirməyinin otuz beş illiyini yüksək səviyyədə müəllimləri ilə bir yerdə keçirməyini şəxsən o, təşkil etmişdi. Xülasə, Əliağa dostlarına qarşı çox sadiq və diqqətli idi. Çünki, o başından dostlar haqqında çox eşitmişdi və ələxsus İmam Əlinin dostlar haqqında kəlamını heç vaxt yaddan çıxartmırdı.

İmam Əli (ə) buyurur: "Dostlar müxtəlif bədənlərdə bir ruhdur".

Ona görə də, Əliağa dostluğa çox böyük qiymət verirdi və dosta qarşı həmişə sadiq idi. O, hələ orta məktəbdə oxuduğu müddətdə, sinifdə ən çox ürəyinə yatan bir nəfər vardı və onunla dostluq edirdi. Tale elə gətirir ki, dostluq etdiyi həmin adam da Bakıya köçür və Bakıda onlar görüşərək öz dostluqlarını davam etdirirlər.

Gülməmməd adlı dostu Şəhər Daxili İşlər idarəsində çalışırdı və yüksək vəzifədə olan bir məmurun sürücüsü idi. Sonralar onu, şəhər yol - patrul xidmətinin müfəttişi vəzifəsinə təyin edirlər.

İşlədiyi müddətdə o da dostu Əliağa kimi xeyirxah işlərlə məşğul olub, kimsəsizlərə əl tutardı. Tikəni dostla bölən adam idi. Heç vaxt Allahı yaddan çıxarmazdı. Oruclug ayında işi ilə əlaqədar özü oruc tuta bilmədiyi halda, oruc tutan insanlara iftar süfrəsi açardı. Hər iki dostun xasiyyəti uyğun gəldiyinə görə onlar möhkəm dost idilər. Bu dostluq get-gedə ailəvi dostluğa çevrilirdi. Buna baxmayaraq Gülməmmədin də Əliağadan fərqli çoxlu dostları vardı və bu dostu onu tez-tez restoran və kafelərə dəvət edirdilər.

Dostunun yeyib-içmək məclislərində tez-tez olması bir dost kimi Əliağanı çox narahat edirdi. Bilirdi ki, belə yeyib-içməyin axırı yoxdu və içkinin insan orqanlarında nə kimi fəsadlar törətdiyini o yaxşı bilirdi. Necə ki, bu haqda Peyğəmbərimiz (s) buyurub: "Şərab pisliklərin və günahların anasıdır". Ona görə də, Əliağa dostunu, bu dibi görünməyən uçurumdan necə xilas etməyin yollarını axtarırdı.

O, dostu ilə görüşəndə ilk söhbətləri bu haqda olurdu və onu hər vəchlə bu yoldan çəkindirirdi. Ancaq o, işlə əlaqədar tez-tez xaricə getdiyindən, dostuna mütəmadi nəzarət edə bilmirdi.

Nəticə isə tezliklə özünü göstərdi. Dostunda ürək ağrısı baş qaldırmışdı.

Bir dəfə rayonda olanda dostunun halı pisləşir və onda boğulma halları baş verir. Bu, Əliağanı bərk narahat edir və Bakıya gələn kimi, şəxsən özü onun müalicəsi ilə məşğul olur. Onu tanınmış bir həkimin yanına aparır.

Həkim onu müayinə edib, Əliağaya dönə-dönə tapşırmışdı ki, dostunun vəziyyəti yaxşı deyil. İçki öz təsirini göstərib. Ona qəti içmək olmaz! Əgər içsə çox yaşamaz.

Əliağa bu sözü həkimdən eşidəndə dəhşətə gəlir və başlayır dostuna yalvarmağa: -Qardaş, at bu içkinin daşını, özünü göz görə-görə niyə məhv edirsən? - Görürsən, mən içmirəm, ölmürəm ki. Sən də içmə. İçki indiyəcən kimə xeyir gətirib? O qədər evlər yıxıb ki! İçkini (şərabı) dinimiz də qadağan edib. Necə ki, Peyğəmbər (s) buyurub: "Bütün pisliklər bir evə yığışıb və evin açarı şərab içməkdir".

Gör bu haqda daha nələr deyib qurbanolduğum:"Əgər sərxoş söz desə, onu təsdiq etməyin, elçiliyə getsə, ona qız verməyin, xəstələnsə ona baş çəkməyin, ölsə dəfnində iştirak etməyin və ona əmanət tapşırmayın".

Bu kəlamları eşidəndə o xeyli fikrə getdi. Handan-hana başını qaldırıb dostunun üzünə baxıb dedi: - Düz deyirsən, dostum, mən düzgün yolda deyiləm, günah etmişəm və sənə söz verirəm ki, bundan sonra bir qram da olsa dilimə vuran deyiləm. Sənə bir dost kimi təkrarən söz verirəm ki, içməyəcəm. Buna tam əmin ola bilərsən.

Bu sözü eşidəndə Əliağa ayağa qalxıb onu qucaqlayır və onu bu üzündən - o üzündən öpür. O qədər sevinir ki, sanki, dünyanı ona bağışlayıblar. Dostunun etirafına ürəyi sakitləşir.

Beləliklə, Əliağa öz dostundan arxayın olub, öz işləri ilə məşğul olmağa başlayır.

Ezamiyyətdən qayıdan Əliağa, dostunun birdən-birə infarkt olub dünyasını dəyişməyini öyrənəndə şoka düşür. Dünya başına fırlanır. Əl atır ki, havadan tutsun, əli boşa gedir və yerə oturur. Handan-hana özünə gələrək, acı göz yaşı axıtmağa başlayır. Bilir ki, bu ölüm içkidən olub. O, yana-yana ağlayaraq deyir: Axı sən mənə söz vermişdin. Mən indi bu dərdə necə dözüm?

Uzun müddət özünə gələ bilməyən Əliağa, ölümün necə baş verdiyini öyrənmək qərarına gəlir və dostunun evinə yolanır.

Dostunun təzə tikdirdiyi ikimərtəbəli evi görəndə özünü saxlaya bilməyib hönkürtü ilə ağlamağa başlayır.

-Niyə belə etdin, Gülməmməd, bu cür özünə gözəl şərait yaratdın, ev tikdin, sənə qismət olmadı, qardaş! İndi sənin rahat yaşamaq vaxtın idi, vaxtsız dünyadan köçdün, həyatdan məhrum oldun, əziz qardaşım! İndi mən necə dözüm sənin yoxluğuna?

Mərhumun oğlanları, ailəsi, qonşular onun başına yığışdı, ona təsəlli verməyə başladılar. Hadisənin təfsilatını ona danışdılar.

Sən demə, rəhmətliyin əlli illiyində ona baş çəkən yeyib-içən dostları onu yoldan çıxarıb deyiblər: - Bizimlə heç olmasa əlli qram iç, çox içmək olmaz. Bilirik ki, müalicədəsən. Hələ tam sağalmayan dostu onlara qoşulub içməyə davam edir. Özünü güclə evə çatdırır. Evə çatmağı ilə keçinməyi bir olur. Heç həkim çağırmağa da imkan olmur. Bax, beləcə də içki dostunun axrına çıxır.

Dostunun ölməyi Əliağaya çox təsir edir. Demək olar ki, onu sarsıdır və o, uzun müddət onu yaddan çıxara bilmir və hər dəfə Allaha yalvarırdı ki, İlahi mənə onu əvəz edə bilən vəfalı, ürəyi təmiz, sədaqətli bir dost yetir.

Bir müddət sonra nəhayət ki, onunla iş birliyi yaradan gözəl bir insanı Allah onun qarşısına çıxarır. Bu insanla ünsiyyətdə olan Əliağa, mərhum dostunda olan bütün keyfiyyətləri onda görür və tezliklə onların tanışlığı dostluğa çevrilir. Böyük imkanlara malik olan dostu Adil müəllim, yüksək vəzifədə işləməsinə baxmayaraq, çox sadə, təvazökar və qayğıkeş bir insan idi. O, az vaxt ərzində Əliağanın da təmiz, mərd adam olduğunu görür, onunla dostlaşır. Ona işdə, hər cəhətdən mənəvi və maddi dayaq duraraq, köməkliklər göstərir. Bu, maddi və mənəvi dayaq Əliağanın iş birliyi sferasını genişləndirir və onun qazancı artmağa başlayır. Az bir vaxt ərzində o, imkanlı bir şəxsə çevrilir.

Yüksək vəzifədə işləyən dostu Adil müəllim çox sadə və qayğıkeş bir insan idi. Belə gözəl keyfiyyətə malik olan insanlar həyatda olmasaydı, həyatın heç mənası da olmazdı. Məhz belə xeyirxah insanların sayəsində adam nə üçün həyatda yaşamağının mənasını dərk edir və nikbin əhvali-ruhiyyə ilə yaşayır. Əliağa da belə insanlardan idi. Dostunun ona dayaq durmağı sayəsində onun biznesini artaraq geniş sahələri əhatə edir və o nüfuzlu bir şəxsə çevrilir. Dostu Adil müəllimin ona göstərdiyi yaxşılıqları o heç vaxt yaddan çıxarmır və onun bu səviyyəyə qalxmağının səbəbkarının bilavasitə Adil müəllim olduğunu hər yerdə etiraf edirdi. Yəni Əliağa bəzi insanlar kimi çörək itirən deyildi. Onların mehribançılığı ailəvi dostluğa çevrilmişdi. Çox xoşbəxt həyat şəraitində yaşayırdılar. Məzuniyyətdə çıxan vaxtlarda ailəvi istirahət zonalarına gedib istirahət edirdilər. Daha bəzi imkanlı şəxslər kimi qürrələnib deməzdilər ki, ay bu il istirahəti Fransada, ay nə bilim İtaliyada, Almaniyada, Türkiyədə və s. yerlərdə keçirmişik. Əliağagildən soruşanda "Azərbaycanda" cavabını eşidərdilər.

Bəli, bu dostların istirahət yerləri öz vətənlərində, Azərbaycanın gözəl, əsrarəngiz meşələri onların istirahət zonaları idi. Nə olsun ki, pulları çox idi, həmin pulları vətənində xərcləmək onlar üçün xoş idi. Çünki bu pulları, var-dövləti onlar öz doğulduğu ana vətənində qazanıblar. Onların fikrincə, hər bir iş adamı qazandığı pulları vətənində xərcləməli və xeyri də xalqına verməlidir.

Cəmiyyətdə, xüsusən də bəzi insanlarda elə bil sağalmayan ruhi xəstəlik onların ürəyində kök salıb ki, ona çarə yoxdur. Bu xəstəliyə tutulan insanlara xalq arasında gözügötürməyən insanlar deyilir. Bu insanların iş-peşəsi onun-bunun dalınca danışmaqdır. Onlar imkanlı şəxslər barədə deyirlər: - Bəxtəvərlər gör necə evlərdə yaşayır, necə var-dövlətləri var. Rayonda bir imarəti ola-ola buradakı imarətə baxın. Pula-pul demirlər, hər il o sanatoriya mənim, bu istirahət zonası mənim. Da ha elə bir xarici ölkə qalmayıb ki, orada istirahət etməsinlər. Biz də bu yaşamqdır ki, ha yaşayırıq. Allah kəssin belə yaşayışı.

Sonra düşür ərinin üstünə: Ay kişi, sən də özünə kişi deyirsən? Kül olsun sən kimi kişinin başına. Kişi bax, odur e..e- deyə imarəti göstərir, onu tikəndi. İndi de görüm sən öz ailənə nə etmisən? Hansı istirahət zonasına bizi istirahətə aparmısan? O yerdə ki ha sən dayanmısan, o yer aralansın, girəsən onun altına. Bizim də canımız qurtarar, sənin də. Mənim bu daxmada iş-peşəm sənin küçüklərini saxlamaq olub. Belə ailə dolandırmaq olar, ay fərsiz?

Bu tənəli sözlərdən sonra kişinin də bir çarəsi qalır, ya gedib oğurluq etsin, ya da ürəyi partlasın o dünyalıq olsun. Mən bu insanlar haqqında onu deyə bilərəm ki, onlar mənəviyyatı olmayan və Allahı tanımayan insanlardır. Onlar başa düşmür ki, ruzunu verən Allahdır. Hər bir insan Allahın verdiyi ruzi ilə razılaşmalıdır. "Qismətdən artıq yemək olmaz"- deyirlər. Bu haqda müqəddəs kitabımız Quranda deyilir: "Həqiqətən, Rəbbin istədiyi kəsin ruzisini artırar, ya azaldar. O, öz bəndələrinin halını bilən və görəndir". (İsra surəsi, ayə 30).

Belə olan surətdə insan nə etməlidir? - ancaq öz qisməti ilə razılaşmalıdır. Cəmiyyətdə sağlam rəqabət aparmaq lazımdır, bu öz yerində. Çünki sağlam rəqabət olan yerdə inkişaf da olar. Söhbət gözügötürməyən, bədnəzər insanlardan gedir. Atdığın daşlardan axır ki, biri hədəfə dəyəcəkdir. Allah insanları belə bədnəzər insanlardan qorusun, deyiblər. Daşı çatdadan bədnəzərdən, gözügötürməyən insanların hədəfinə bu gözəl insanlar - dostlar da tuş gəlir.

*(Davamı var)*